**BİR DƏQİQƏ SÜKUT... GƏMİ SİQNALI...**

***Vətən müharibəsində həlak olan***
***2823 şəhidin istəkli xatirəsinə...***

Bir dəqiqə sükut... Gəmi siqnalı...
On milyon havalı gözü qapalı.
On milyon cüt dodaq dua pıçıldar,
On milyon təsəlli yarımçıq qalar.
Damarımda axır qürbət suları,
Guya mən şairəm, Vurğun misalı,
Amma şəhid adı, nəşi gələndə,
Şəhid anasının səsi gələndə
Ayrı bir ölçüdə, ayrı biçimdə
bir şair yıxılıb qalır içimdə...
Nə özüm müsəlləh, cəsur əsgərəm,
Nə də bir süngüdür əlimdə qələm.
Amma gün gələcək, Vurğun doğacaq,
Bəlkə, bir az təbi solğun doğacaq.
Hərçənd xatirəniz şimşək kimidir,
Gora danışırlar, ölü dirilir.
Dirildər o, təbi solğun yetimi
Bu xatirə ona bir vurğun kimi
Belə yazdırar:
"Keçsə aylar, illər, keçsə nə qədər,
Bu gündən dünyanın sonuna qədər
Gecənin bağrında dan döyünəndə,
Üfüqlər sürməyi don geyinəndə
Ulduztək görünüb gözdən itəcək
İki min səkkiz  yüz iyirmi üç ürək..."



Sərdar AMİN

